İPƏK YOLU, No.2, 2020, səh.176-179

# XIX ƏSRİN BİRİNCİ YARISINDA ÇARİZMİN MÜSƏLMAN RUHANİLİYİNƏ MÜNASİBƏTİ MƏSƏLƏSİ

**Nüşabə Quliyeva, Roza Məmmədova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: roza19961234@gmail.com

**Xülasə.** Məqalədə Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonrakı onilliklərdə çar hakimiyyətinin Azərbaycanın ali müsəlman təbəqəsinə, xüsusən də ruhanilərə münasibəti, yeritdiyi qərəzli siyasət araşdırılmışdır. Çarizmin müsəlman əhalini məzhəbə görə parçalamaq cəhdləri xüsusi tədqiq olunmuşdur.

**Açar sözlər:** ali müsəlman silki, çarizm, müsəlman ruhaniliyi, şiə məzhəbi.

**ON THE ATTITUDE OF TSARISM TO THE MUSLIM CLERGY IN THE FIRST HALF OF THE 19th CENTURY**

**Nushaba Guliyeva, Roza Mammadova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The article analyzes the attitude of the tsarist government towards the highest Muslim estates of Azerbaijan, especially the clergy, and the biased policies pursued by the tsarist government in the first decades after the Russian occupation of Northern Azerbaijan. Particular attention was paid to the attempts of the tsarist authorities to divide the Muslim population on religious grounds.
**Keywords:** higher Muslim movement, tsarism, Muslim clergy, Shiite sect.

**ОБ ОТНОШЕНИИ ЦАРИЗМА К МУСУЛЬМАНСКОМУ ДУХОВЕНСТВУ В ПЕРВОЙ ПОЛОВИНЕ XIX ВЕКА**

**Нушаба Кулиева, Роза Мамедова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье анализируется отношение царского правительства к высшему мусульманскому сословию Азербайджана, особенно к духовенству, и предвзятая политика, проводимая царским правительством в годы первого десятилетия после Российской оккупации Северного Азербайджана. Особое внимание было уделено попыткам царских властей разделить мусульманское население по религиозному признаку.
**Ключевые слова:** высшее мусульманское движение, царизм, мусульманское духовенство, шиитская секта.

## 1. Giriş

1828-ci ildə Rusiya ilə Qacarlar dövləti arasında Türkmənçay müqaviləsinin bağlanması ilə Azərbaycanın bölünməsi və işğalı qəti başa çatdı. Çarlıq Rusiyası Şimali Azərbaycanda yeni işğal etdiyi ərazilərdə müstəmləkəçilik idarə sisteminin tam bərqərar olunması üçün addımlar atdı, inzibati, sosial, mülki dəyişikliklər etməyə başladı.

İşğaldan sonra Rusiya hakim dairələrinin diqqəti iki mühüm məsələyə yönəlmişdi: birincisi, Şimali Azərbaycanı və bütövlükdə Qafqazı Rusiyanın fabrik-zavod sənayesi üçün xammal istehsalı mərkəzinə və satış bazarına çevirmək, ikincisi, inzibati dəyişikliklər edib yerli hakim elitanı hakimiyyətdən tamam uzaqlaşdırmaq, yerli ali zümrədən yalnız çar hökümətinə sədaqətli və müti şəxsləri ikinci dərəcəli vəzifələrə təyin etmək. İkinci məsələnin

uğurlu həlli, birinci əsas məsələnin müvəffəqiyyətlə icra edilməsinə zəmin hazırlayırdı. Rusiya hakimiyyəti nümayəndələri bu məsələdə müsəlman ruhanilərin roluna xüsusi həssaslıqla yanaşırdılar.

Rusiya işğalları dövründə, xanlıqlar dövründə olduğu kimi, Azərbaycanda sosial zümrənin yuxarı pillələrində müsəlman ruhaniləri önəmli mövqe tuturdular və cəmiyyət həyatında söz sahibi idilər. Bu məsələni tarixçi Rəsul Hüseynli xüsusi araşdırmış, monoqrafiyasında xanlıq idarəçiliyində ruhani zümrəsinin tutduğu yeri, cəmiyyət həyatında oynadığı rolu milli tarixçiliyimizin mühüm problemi kimi qiymətləndirmişdir [7, s.28-29]. XVIII əsrin sonu – XIX əsrin ilk onilliklərində digər müsəlman cəmiyyətlərində olduğu kimi Azərbaycan xanlıqlarında da qanunların şəriətə əsaslanması, cəmiyyətdə məscidlərin, ruhanilərin rolunu yüksəltmişdi. Ruhanilər xanlıqların ictimai, sosial-siyasi həyatında fəal iştirak edirdilər.

İslam aləmində icraedici hakimiyyətlə dini idarəyə rəhbərlik tamam ayrı olmadığından, orta çağlardan üzü bəri cəmiyyət həyatında ruhani zümrəsinin yeri və rolu ayrıca qiymətləndirilməmişdir. Xristian dinində mövcud olan kilsə məhkəməsindən fərqli olaraq, müsəlman dövlətlərində dövlət-vətəndaş, dövlət-xalq münasibətləri yeganə qanun toplusu sayılan şəriət hökmləri əsasında tənzimlənirdi.Ancaq, qədim dövlətçilik ənənələrinə malik olan bir sıra ölkələrdə, eləcə də Azərbaycanda ruhanilik xüsusi bir kateqoriya olaraq formalaşa bilmişdi [6, s.30-31].

Bu baxımından çarizmin müstəmləkə siyasətində ruhani təbəqəsinin ayrıca rolu var idi. XIX əsrin 30-cu illərinin sonuna qədər çarizm Qafqazda həm yüksək zümrə olan bəy və ağalara, həm də ruhanilərə qarşı apardığı siyasət zorakı xətt üzrə formalaşmaqda idi. Qafqazda xristianlığı yaymaq, eləcə də özünə sosial dayaq yaratmaq, müsəlman ruhaniliyinə zərbə vurmaq üçün çar hökuməti 1817-18-ci illərdə almanları, 1828-ci ildən sonra Osmanlı və Qacarlar dövlətlərindən erməniləri, 1830-cu illərdə isə rus təriqətçi və bidətçilərini Şimali Azərbaycanın müxtəlif bölgələrinə köçürmüşdü. Həmçinin, Azərbaycan ruhanilərinin Yaxın Şərq, Osmanlı və Qacarlar dövlətləriilə əlaqələri məhdudlaşdırılmış, bir çoxlarının səlahiyyətləri alınmış və bəziləri Osmanlı və Qacarlar dövlətləri ilə bağlantı qurduğu iddiasına görə sürgün edilmişdi.

Azərbaycanda müsəlman əhalidini inanc baxımından şiə və sünnilərə bölündüyündən, Çar Rusiyası dini ayrı-seçkiliyi dərinləşdirməyə, iki məzhəb arasında qarşıdurma yaratmağa, sonra da onlar arasında tənzimləyici olmağa çalışırdı. Ona görə də rus məmurları dini məsələləri öz xeyrinə tənzimləmək üçün müsəlmanlar arasında süni şəkildə gərginlik yaradır, onları bir-birinə qarşı qaldırmaq siyasəti yürüdürdülər. Bu məqsədlə 1823-cü ildə şiə təriqətinə inanan əhali üçün şeyxülislam, sünni inanclı olan əhali üçün isə 1832-ci ildə müfti vəzifəsini təsis etdi. Hər iki vəzifəyə seçilən din xadimləri bir-birindən ayrı fəaliyyət göstərirdilər və yalnız dini məsələləri tənzimləyən qərarlar vermək səlahiyyətinə sahib idilər. Onların başlıca vəzifəsi Rusiyaya sədaqətlə xidmət etmək, eləcə də dini təbliğat yolu ilə

əhalini imperiya qaydalarına itaətə çağırmaq idi. Bu ruhanilərə nə geniş səlahiyyətlər verilmiş, nə də onlar üçün ayrıca dini ruhani idarəsi təsis olunmuşdu [8, s.148-149].

XIX əsrin 30-cu illərində çarizm müsəlman və xristian zadəganlarla bağlı fərqli siyasət yeridirdi. Müsəlman zadəganlığına verilən imtiyazlar erməni və gürcü feodallarına verilən hüquq və imtiyazlardan dəfələrlə az idi. Ali müsəlman təbəqəsinin xüsusi mülkiyyətinin irsən keçməsi məsələsi tam müəyyən olunmamışdı və mübahisəli olaraq qalırdı. Zorla, silah gücünə tutulmuş ərazilərdə əvvəllər olmayan qaydaların tətbiq olunması, elin, kəndin, mahalın başçılarının sıxışdırılması ciddi narazılıq doğurdu. Əhali bu zorakılqlara etiraz çıxışları, silahlı üsyanlar ilə qarşılıq verirdi [4, s.100-106].

Bu kütləvi çıxışlar artıq çar hakimiyyəti nümayəndələrinin alimüsəlman silkinə qarşı başlanmış ayrı-seçkilik siyasətinin yanlış olmasını anlamalarına səbəb oldu. Qafqazdakı rus məmurları başa düşdülər ki, bəy və ağalarla bərabər, ruhanilərin də Rusiya hakimiyyətindən narazı qalması onların vahid bir cəbhədə birləşməsi üçün zəmin yaradacaq və bütün xalqı öz arxalarınca aparacaq zəhmli qüvvə ilə üzləşməli olacaqlar. Bütün bunları nəzərə alan çar hökuməti Qafqazda siyasi sabitlik yaratmaq, öz dayaqlarını möhkəmlətmək üçün müəyyən tədbirlər görməyə məcbur qaldı.

1842-ci ildə Cənubi Qafqazda mövcud vəziyyəti öyrənmək üçün Çernışev və Rozenin başçılığı altında xüsusi komisiyanın göndərilməsi belə tədbirlərdən biri idi. Həmin ildə Leqkobıtov öz layihəsini şuraya təqdim etdi. Onun layihəsində əsas məqsəd müsəlman ruhaniliyinin faydalı təşkili və idarə sisteminin ən münasib şəkildə qurulmasına yönəlmişdi. Leqkobıtov belə fikirləşirdi ki, Qafqazda ruhaniliyi birbaşa ləğv etmək xaos yarada bilər. Bu baxımdan onları zəiflətmək üçün ən uğurlu yol ruhanilərin səlahiyyətlərini addım-addım azaltmaqdan keçirdi. Eyni zamanda çarizmə sədaqətlə qulluq edən, rus dilini bilən ruhanilərin yetişdirilməsi və vəzifəyə gətirilməsinin zəruriliyini qeyd edirdi [3, s.340].

XIX əsrin 40-cı illərinin başlanğıcında çar hökuməti Qafqazda müsəlman ruhaniliyi öz xeyrinə tənzimləmək məqsədi ilə bir sıra addımlar atdı. Lakin bu illərdə Şimali Qafqazda dağlı xalqların çarizmə qarşı milli-azadlıq mübarizəsi gücləndiyindən, rus məmurları Cənubi Qafqazda vəziyyətidaha da gərginləşdirməmək üçün müsalman ruhaniləri ilə bağlı yeni məhdudlaşdırıcı addımlardan çəkindilər.

1844-cü ildə Qafqaza canişin təyin edilən qraf Mixail Vorontsov fəaliyyətinə ali müsəlaman silkini sakitləşdirilməsi tədbirləri ilə başladı. 6 dekabr 1846-cı il əsasnaməsinə görə, yerli ali zümrəyə məxsus mülklərin müsadirəsi dayandırıldı, onların mülkiyyət hüququ tanındı. Bundan başqa, əsasnamənin 10 və 11-ci bəndlərində şəriət məsələlərinə də yer verlmişdi. Artıq mübahisəli mülki məsələlər rus qanunları ilə yanaşı, şəriət əsasında da həll edilə bilərdi. Bu əsasnamənin din xadimləri üçün əhəmiyyəti ondan ibarət idi ki, artıq az da olsa ruhanilərin səlayiyyətləri genişləndirilir, onlardan məmur kimi istifadə olunurdu. Canişin bu məqsədlə sədaqətli hesab etdiyi din adamlarını seçir, onları imperiya lehinə çağırışlar etməsi üçün mükafatlar və vəzifələrlə həvəsləndirirdi. Məsələn, belə din xadimlərindən biri

Nuxada qazı vəzifəsini icra edən Əbdül Rəhman Əfəndi olmuşdu. Qazı Rusiya hakimiyyətinə qarşı 1844-1845-ci illərdə baş verən üsyanlar zamanı müxalif adamların ifşasında və yaxalanmasında bilavasitə iştirak etmişdi. Buna görə də sonralar mükafatlandırılması üçün canişin tərəfindən I Nikolaya təqdimat göndərilmiş, beləcə qazi poruçik hərbi rütbəsi ilə təltif olunmuşdu.Fəaliyyət göstərdiyi illərdə o da çar məmurları kimi hərbi geyimdən istifadə edirdi.Hətta iş o yerə çatmışdı ki, hakimiyyət nümayəndələri qazıya ehtiyyatlı davranmağı, dini vəzifəsini icra edən zamanı hərbi geyim geyməməyi tapşırmışdılar [2, v.6].

Voronsov dərk edirdi ki, yerli idarəçilikdə vəziyyəti ələ almaq üçün ali müsəlman təbəqəsi ilə, o cümlədən müsəlman ruhaniləri ilə birlikdə işləmək son dərəcə zəruridir. Bununla bağlı o, tanınmış şərqşünas N. Xanıkova Cənubi Qafqazdakı müsəlaman ruhaniliyi barədə məlumatlar toplamağı, vəziyyəti öyrənməyi və əsasnamə hazırlamağı tapşırdı.Xanıkovun 99 maddə və 10 bölmədən ibarət olan layihəsi 1849-cu ildə müzarikirəyə çıxarıldı. Onun layihəsində şiə məzhəbindən olan ruhanilərin hüquq və imtiyazlarının dərəcə-dərəcə müəyyənləşdirilməsi, onların vergi və mükəlləfiyyətlərdən azad olunması, eləcə də məscid və ibadət yerlərinin tikilməsi təklifləri irəli sürülmüşdü. Ancaq çar höküməti Xanıkovun layihəsini birmənalı qarşılamadığından, bu layihə qəbul olunmadı. XIX əsrin 40-cı illərində Cənubi Qafqazda müstəmləkə siyasəti əleyhinə üsyanların yeni dalğası başlayanda ruhani zümrəsi də üsyanın əsas iştirakçısna çevrildi [7, s.68-72].

Bu da daha sonrakı dövrdə çar hökümətini ruhani zümrəsinin işinə yenidən baxmağa, eləcə də Xanıkovun layihəsindəki bəzi təklifləri istifadə etməyə məcbur etdi.

## Ədəbiyyat

1. Abdullayev M.Q. (2005), Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər), Bakı.
2. AR DTA, f.288, siy.1, iş17.
3. Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı,1969.
4. Azərbaycan tarixi. Yeddi cilddə, IV c., Bakı, 2007.
5. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). S.S.Əliyarlının redaktəsi ilə. Bakı, 2009.
6. Əhədov A. (1991), Azərbaycanda din və dini təsisatlar. Bakı,1991.
7. Hüseynli R. (2002), Azərbaycan Ruhaniliyi (xanlıqlar çağından sovet işğalınadək olan dövrdə), Bakı.
8. İsgəndərov A., Mövlayi A. (2016), Şeyxülislamlığın tarixi, Bakı.